Не удается отобразить связанный рисунок. Возможно, этот файл был перемещен,...

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli, 394 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin strukturu»nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasi Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin su ehtiyatlarının idarə olunmasının təkmilləşdirilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyi yaradılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli, 394 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 4, maddə 326; 2008-ci il, № 2, maddə 50, № 4, maddə 260, № 6, maddə 508; 2009-cu il, № 9, maddə 687, № 12, maddə 983; 2010-cu il, № 2, maddələr 83, 85; Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli, 381 nömrəli Fərmanı) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin strukturu»na «Dövlət Material Ehtiyatları Agentliyi» abzasından sonra *«Su Ehtiyatları Dövlət Agentliyi»* abzası əlavə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

3.1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin Əsasnaməsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 25 fevral 2011-ci il***

***№ 389***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (26 fevral 2011-ci il, № 45) («VneshExpertService» LLC).***

*© «VneshExpertService» LLC*